# Şeir mənəviyyatımızın “Ana dili” dərsliyidir...

**İlqar MÜZƏFFƏROĞLU,**
**Azərbaycan Jurnalistlər Birliyinin üzvü**



*(Müasir Azərbaycan ədəbiyyatında öz dəst-xətti ilə seçilən şair Ələsgər Əlioğlu ilə müsahibə)*



**– Bildiyimizə görə bu il yetmiş yaşınız tamam oldu. Yetmiş yaş yəqin ki, yubiley ili kimi ədəbi yaddaşınızda öz izlərini buraxacaq...**

– Mən heç zaman özüm üçün yubiley ili haqqında narahat olmamışam. Söhbətimizin başlanğıcına bir az yumor hissi qatmaq istərdim. Elə yazarlarımız vardır ki, bir ildə iki dəfə doğulmamaqlarına təəssüflənirlər. Beləlǝri bir ildə iki dəfə yubiley keçirmək həvəsində olanlardır. Qəribə də olsa bir sirri açmaq istəyirəm. Mən heç zaman ad günü də keçirməmişəm. Nə əlli illiyim haqqında düşünmüşəm, nə də altmış illiyim...

Yetmiş illiyə gəldikdə istər-istəməz duruxmalı oluram...Üzümə hansı qapı açılacaq!? Artıq demək olar ki, yaşam “normamı” yerinə yetirmişəm... Deyəsən “öhdəliyə” keçirəm...Əlbəttə bu, bir zarafatdır. Hər şey Tanrının əlindədir... Yetmiş yaşın yubiley sevincini bu dünyada unutsam da, yəqin ki o dünyada unutmaram...

**– Artıq arxada qoymuş olduğunuz bu yetmiş ilin yarıdan çoxunu uşaqların mənəvi zövqünə “xərcləmisiniz”. Yəqin ki, özünüzü uşaq yazıçısı kimi (deyərdim ki, hətta barmaqla göstərilən bir uşaq yazıçısı kimi) daha rahat hiss edirsiniz...**

– Əlbəttə, uşaqlar üçün çox həvəslə yazıb-yaradıram. Ancaq bəziləri lirik yaradıcılığımla tanış olmadan fikirlər irəli sürürlər. Onlar o kəslərdir ki, mənim bir lirik yazımı belə oxumayıblar və yaxud uşaq ədəbiyyatına qeyri-ciddi münasibət bəsləyirlər... Bununla belə onların nə demək istədiklərini yaxşı başa düşürəm... Sanki lirik yazılarımı qısqanır, bir qədər kölgədə qoymaq istəyirlər. Onlar unutmamalıdırlar ki, lirik yaradıcılığım haqqında məşhur yazıçılarımızdan Bəxtiyar Vahabzadə, Osman Sarıvəlli, Nəbi Xəzri, Çingiz Hüseynov, Əkrəm Əylisli və başqaları yüksək fikirlər söyləmişlər...Mənə elə gəlir ki, lirik yazılarımla bağlı bu da az söz demir... O ki qaldı uşaq şeirlərimə deyərdim ki, ədəbiyyatla ciddi surətdə məşğul olan hər bir kəs tutduğu mövqeyi və yeri hamıdan qabaq özü yaxşı hiss edir...

**– Siz nəsrlə də məşğulsunuz. Bunla bağlı nə deyə bilərsiniz? Bu yazılar mənəvi ehtiyacdan yaranmışmı, yoxsa?..**

– Yoxsasız... Bəli, mənim uşaqlar üçün iki povest və hekayələr kitabım çapdan çıxmışdır. Böyüklər üçün qələmə aldığım “21 hekayə” kitabım bu yaxınlarda işıq üzü görmüş, “Sümük şaqqıltısı” kitabım isə hazırda çapdadır. İstər şeir olsun, istər nəsr... Bunlar mənim üçün elə də bir fərqli məna kəsb etmir. Əsas məsələ nəticədir. Yazdığının dəyəri olsun, qəlb oxşasın...

**– Ələsgər müəllim, sirr deyilsə yetmiş illiyinizi yazıçı dostlarınızdan kimlər təbrik etmişlər?**

– Təbriki ən çox oxucularımdan görmüşəm. AYB-nin katibi Rəşad Məcidin və tələbə yoldaşım Səidə Məmmədovanın təbrikləri yaddaşımın səhifələrinə həkk olunmuşdur...

**– Atanız rəhmətlik Cinli Əli dövrünün sözünü deyən şairlərindən biri kimi tanınıb. Bir az bu haqda söz açasınız. Sizin şair kimi yetişməyinizdə onun bir təsiri olubmu?**

– Atam el ruhunda neçə-neçə maraqlı şeirlər qələmə almışdır. Arxivimdə bəzi nümunələri də qalmaqdadır. Ancaq nə qədər ağır olsa da deməliyəm. Sovetlər dönəminin yetirməsi olduğumdan onun bu ruhlu şeirlərinə ilk zamanlar laqeyd münasibət bəsləmişəm...

Atam şeirlərini yol gedə-gedə, qapıda-bacada işləyə-işləyə yazardı... Çox zaman dodağının altda nəsə qımıldanardı... Hətta aşağı sinifdə oxuyarkən bir dəfə qızlardan birini cırnadan zaman mənə dedi: – Dədən yol gedə-gedə öz-özünə danışır... Bu “cırnatma” mənə ilk çağlarda pis təsir göstərsə də, sonralar bir növ buna alışdım. Yetkinlik yaşlarımda hiss etdim ki, atam şeiri yaşaya-yaşaya yaradırmış... Şeirinin ilk oxucusu da elə özü imiş...

Düzdür, şeirə-sənətə bağlılığımda atamın təsiri olmuşdur. Ancaq bizim yaradıcılığımız heç zaman bir-birinə səmt düşməmişdir... Mən yazdığımı o bəyənmirdi, o yazdığını mən...

Təəssüf ki, yanıldığımı onun ömrünün son məqamlarında başa düşdüm... O məqamlarda ki, yaddaşındakı şeirləri qarışdırırdı... Sinəsində çox incilər getdi dünyadan...

**– Sizcə şairlik nədir, bu peşədirmi, məqsəddirmi, xobbidirmi, nədir axı?...**

– Bu ilk baxışda bayağı sual təsiri doğurur... Ancaq bir qədər düşündükdən sonra bu suala ciddi yanaşmalı olursan. Mənə elə gəlir ki, şeir mənəviyyatımızın “Ana dili” dərsliyidir... Qələm deyəni çox zaman qılınc deyə bilmir...

**– Gəncəbasarda yaşayan bir müəllif kimi bu bölgədən hansı yazıçıların adını çəkə bilərsiniz?**

– Elə Qərib Mehdidən başlayaq. Böyük yazıçıdır. Ona görə böyük deyirəm ki, o öz dünyası olan sənətkardır. Təəssüf ki, sevimli şairimiz Cabir Novruzun “Sağlığında qiymət verin insanlara” poetik kəlamı hələlik Qərib yaradıcılığından yan keçir...

Ciddi yaradıcılıq yollarında öz dəst-xəttilə seçilən yazarlarımızdan Məzahir Hüseynzadə, Aydın Murovdağlı, Xəzangül, Aləmzər Əlizadə, Sahib İbrahimli, Nüşabə Məmmədli, Rəfiqə Sadıqova, Fərruxə Umarova, Ümbülbanu, Fazil Sənan və İnqilab İsaqın adlarını çəkməliyik. Deyilənə görə istedadlı gənc yazarlar çoxdur...Ancaq dörd nəfərin adı yaddaşımda özünə yer tapmışdır: Vüsal Hicran, Zahir Şirani, Eltun Türkel, Rəsul Murovdağlı... Onlar da ki, elə də gənc deyillər...

**– Neçə kitab ərsəyə gətirmisiniz, həmin kitablarda daxili hisslərinizi tamamilə aça bilmisinizmi və yaxud deyilməmiş çoxmu sözləriniz qalıb?**

– Mənə elə gəlir ki, bu sualınız heç yerinə düşmür...Ancaq cavab verirəm. Sovetlər dönəmində beş kitabım çapdan çıxmışdır. Həmin kitablara bu gün də ciddi münasibət bəsləyirəm. Onu da qeyd edim ki, beşinci kitabımın qonorarını da almışdım. Siqnal nüsxəsi də çıxmışdı. Ancaq SSRİ dağıldığı üçün kütləvi surətdə çap olunmadı...

Sonralar isə on beşə qədər kitabım çap olunmuşdur. Hər birinin də tirajı 100-200 arası...Bu tiraj onlara kitab deməyə imkan verirmi!? Çünki sovetlər dönəmində kitablarım 7000 tirajla çap olunurdu...

Bənzətməm yerinə düşürdüşmür deyə bilmərəm, mənim nəzərimdə yaradıcılıq hissləri su quyusunu xatırladır. Nə qədər su götürsən də, yenə də yeri dolur... Yaradıcılıq hissləri heç vaxt-bitib tükənməz. Elə düşünürəm ki, deyiləsi sözlərim hələ qabaqdadır...

**– Son günlər bir sensasiyalı xəbər yayıldı. Elza Seyidcahan da sıranıza qəbul olundu. Münasibətiniz?..**

– Bu sualınız da məni heç açmadı... Hər şeydən qabaq axı o, qadındır... Burada nə sensasiyadan söhbət gedə bilər ki!? Onsuz da sayı 2000 nəfərdən artıq olan Azərbaycan Yazıçılar Birliyi üzvlərinin ən azı yetmiş faizi elə Elza Seyidcahan kimidir də!..

**– Oxuculara ürək sözləriniz...**

– Bu xaos doğuran ədəbi mühitdə onlara arzu edərdim ki, zövqlərini qoruyub saxlamağı bacarsınlar... Mütaliə insan düşüncəsini zənginləşdirir... Bir şərtlə ki, baxır nəyi oxuyasan...

**– Verdiyiniz müsahibə üçün sizə öz təşəkkürümü bildirirəm. Arzu edirəm ki, oxucularımızı yetmiş yaşın işığında müdriklik doğuran yeni-yeni əsərlərinizlə sevindirəsiniz.**

– Sağ olun!